<table>
<tr><td rowspan="5">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>EDU 407, Passiv pedaqoji təcrübə, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td>Təhsil</td></tr>
<tr><td>Proqram<br>(bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2025/2026-cı tədris ilinin payız semestri</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə fərdi qaydada razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan, ingilis</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Passiv pedaqoji təcrübənin təsviri</td><td colspan="2">Xəzər Universitetinin Təhsil departamentində pedaqoji təcrübə bakalavr təhsil proqramının dördüncü ilində, payız və yaz semestrlərində təşkil olunur. Hər semestr ərzində pedaqoji təcrübə 12 həftə davam edir. Müəllimlik ixtisası üzrə təhsil alan tələbələr sonuncu tədris ilinin payız semestrində passiv, yaz semestrində isə aktiv pedaqoji təcrübə keçirlər. Passiv pedaqoji təcrübə müddətində təcrübəçi müəllim eyni zamanda təyin olunduğu sinifdəki müəllimə assistentlik edir. Bu zaman o, sinfin idarə olunması, təlimin planlaşdırılması, təlim materiallarının hazırlanması, şagirdlər, valideynlər və həmkarlarla ünsiyyətin qurulması, şagird nailiyyətlərinin qiymətləndirilməsi və müəllim etikasına dair fəaliyyət və davranışları müşahidə edir. Bu müddətdə təcrübəçi müəllim məktəb mühiti və pedaqoji proseslə tanış olur, şagirdlərlə ünsiyyət qurur və kiçik qruplarla işləyir. Eyni zamanda, təcrübəçi müəllimlər gündəlik müşahidə meyarları əsasında hazırladıqları gündəlik qeydləri və həftəlik hesabatları yazılı şəkildə metodist müəllimə təqdim edirlər. Həmin sənədlər seminar saatlarında digər təcrübəçi müəllimlərlə birlikdə seminarın mövzusuna uyğun olaraq müzakirə olunur.</td></tr>
<tr><td>Kursun məqsədi</td><td colspan="2">Passiv təcrübənin məqsədi təcrübəçi müəllimlərin məktəb və sinif mühitinin fəaliyyəti ilə əyani şəkildə tanış olmalarını təmin etmək, həmçinin tələbələrin dörd il ərzində əldə etdikləri nəzəri-pedaqoji bilikləri məktəb şəraitində müşahidə yolu ilə tətbiq edərək onları aktiv təcrübəyə hazırlamaqdır.</td></tr>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="2">Passiv pedaqoji təcrübəni uğurla başa vuran təcrübəçi müəllim:<br>- Anlamlı öyrənmə mühiti ilə bağlı əsas anlayışlara malik olur;<br>- Şagirdlərin fərqli öyrənmə strategiyalarına sahib olduqlarını anlayır və onların öyrənməsini təmin etmək üçün dəstəkləyici mühitin vacibliyini dərk edir;<br>- Sinfin idarə olunması və öyrənmə mühitinin təşkili ilə bağlı əsas xüsusiyyətləri (qarşılıqlı pozitiv ünsiyyət, təşviqetmə, motivasiya yaratma, fəaliyyətə cəlbetmə və s.) izah edə bilir;</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | - Səmərəli ünsiyyət qurmaq, əməkdaşlıq etmək və məsuliyyətli davranmaq bacarıqları nümayiş etdirir;<br>- Müşahidə etdiyi dərsləri müəyyən olunmuş meyarlar əsasında təhlil edir;<br>- Sinfin idarə olunmasında mövcud güclü və zəif tərəfləri şərh edir;<br>- Həftəlik yazılı hesabatlar tərtib edir;<br>- Dərs planı nümunəsi hazırlayır;<br>- Sınaq dərsləri üçün tədris materialları hazırlayır. | | |
| **Tədris metodları** | Qrup müzakirələri | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Tapşırıqların təhlili | + | |
| | Müşahidə gündəlikləri | + | |
| | Təqdimatlar | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Davamiyyət | Semestr ərzində | 10 |
| | Müzakirələr zamanı fəallıq | Semestr ərzində | 10 |
| | Həftəlik yazılı hesabat | Semestr ərzində | 30 |
| | Nümunəvi dərs planının hazırlanması<br>(Dərsin icmalı və prezentasiya) | Semestr sonunda | 30 |
| | Fənn müəlliminin rəyi | Semestr sonunda | 10 |
| | Metodist müəllimin rəyi | Semestr sonunda | 10 |
| | Yekun | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Metodist müəllimin vəzifə və öhdəlikləri:**<br><br>- 12 həftəlik pedaqoji təcrübə dövründə sinfin idarə olunması, təlimin planlaşdırılması və təlim materiallarının hazırlanması, şagird nailiyyətlərinin qiymətləndirilməsi, şagirdlər, valideynlər və həmkarlarla ünsiyyətin qurulması, məktəb sənədləri ilə işləmə, müəllim peşəkarlığı və etikası mövzularında ümumilikdə minimum 24 saatlıq seminar təşkil etmək;<br>- Təcrübəçi müəllimlərin gündəlik qeydlərinin müəyyən olunmuş meyarlar əsasında aparılmasına, həftəlik hesabatların hazırlanmasına, həmçinin qiymətləndirmə meyarlarında nəzərdə tutulan komponentlərin icrasına nəzarət etmək və bu prosesə dəstək göstərmək.<br><br>**Təcrübəçi müəllimin vəzifə və öhdəlikləri:**<br><br>- Pedaqoji təcrübə prosesində aktiv şəkildə iştirak etmək;<br>- Təcrübə keçdiyi məktəbin daxili nizam-intizam qaydalarına riayət etmək; | | |

- Məktəb və sinifdə həyata keçirilən fəaliyyətlərlə tanış olmaq;
- Sinif müəlliminin sinfin idarə olunması, təlimin planlaşdırılması, təlim materiallarının hazırlanması, şagirdlər, valideynlər və həmkarlarla ünsiyyətin qurulması, şagird nailiyyətlərinin qiymətləndirilməsi, eləcə də müəllim etikasına dair davranışlarını müşahidə etmək;
- Müşahidələrini metodist müəllimlə paylaşmaq və seminar saatlarında müzakirələr aparmaq;
- Sinif müəlliminə assistentlik etmək;
- Şagirdlərlə ünsiyyət qurmaq və kiçik qruplarla işləmək;
- Gündəlik və həftəlik hesabatlar hazırlayaraq metodist müəllimə təqdim etmək;
- Seminar saatlarında digər təcrübəçi müəllimlərlə birlikdə seminar mövzusuna uyğun müşahidələrini müzakirə etmək;

**Bir dərs üçün nümunə dərs planının hazırlanması** (dərsin icmalı *Word* formatında və təqdimatın *PowerPoint* şəklində hazırlanması);
**Nümunəvi dərs planının qiymətləndirmə meyarları:**

- Tədris planı aydın şəkildə qurulmalı, dərsin məqsədləri, nəticələri, mərhələləri və istifadə ediləcək üsul və vasitələr konkret şəkildə göstərilməlidir. Plan fənn kurikulumuna və sinfin səviyyəsinə uyğun olmalıdır;
- Seçilmiş təlim metodları şagird yönümlü və aktiv öyrənməni təşviq etməlidir;
- Dərs zamanı slayd, əyani vəsait, lövhə, video və digər texnoloji resurslardan məqsədəuyğun və effektiv istifadə edilməlidir;
- Təcrübəçi müəllim aydın və səlis danışmalı, şagirdlərlə pozitiv və təşviqedici ünsiyyət qurmalıdır;
- Dərsin sonunda əsas məqamlar ümumiləşdirilməli, şagirdlərin öyrəndiklərini nümayiş etdirə biləcəyi refleksiya və ya nəticə mərhələsi təşkil olunmalıdır.

**Akademik dürüstlük və etik davranış**
Təcrübəçi müəllimlər Xəzər Universitetinin akademik dürüstlük prinsiplərinə əməl etməlidirlər. Akademik dürüstlük bütün yazılı və şifahi tapşırıqlarda, təqdimatlarda, hesabatlarda və qiymətləndirmə prosesində öz işini dürüst və vicdanlı şəkildə təqdim etmək deməkdir. Aşağıda göstərilən davranışlar qadağandır və onların baş verməsi halında müvafiq inzibati tədbirlər görüləcəkdir:

- Plagiat (başqasının fikrini və ya yazılı materialını mənbə göstərmədən təqdim etmək);
- Məlumatları saxtalaşdırmaq və ya hesabatlara qeyri-real məlumat daxil

| | |
|---|---|
| | etmək;<br>- Sınaq dərsdə və ya təqdimatlarda başqasının işindən istifadə edərək öz işi kimi təqdim etmək;<br>- Seminar və müzakirələrdə iştirak etmədən iştirak etmiş kimi qeyd olunmaq;<br>- Məktəb daxilində və ya təcrübə müddətində etik normaları pozmaq (məsələn, müəllim, şagird və ya valideynlərlə qeyri-etik münasibət).<br>- Təcrübə müddətində nümayiş etdirilən etik və peşəkar davranış fənn üzrə ümumi qiymətləndirməyə birbaşa təsir göstərir. Bütün tələbələrdən ali təhsil müəssisəsinə və məktəb mühitinə hörmətlə yanaşmaları, müəllim etikası və peşəkarlıq prinsiplərinə əməl etmələri gözlənilir. |